**Xarici ticarət əlaqələri haqqında**

2023-cü ilin yanvar-sentyabr aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 192 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 117 ölkəyə məhsul ixrac olunmuş, 183 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2023-cü ilin yanvar-sentyabr aylarında ölkənin xarici ticarət dövriyyəsi 33591,9 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 20977,7 milyon dollarını və ya 62,4 faizini ölkədən ixrac olunmuş məhsulların, 12614,2 milyon dollarını (37,6 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 8363,5 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2022-ci ilin yanvar-sentyabr ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 18,7 faiz, real ifadədə isə 3,1 faiz azalmışdır. İdxal real ifadədə 4,6 faiz artmış, ixrac isə 5,7 faiz azalmışdır.

2023-cü ilin yanvar-sentyabr aylarında qeyri neft-qaz məhsullarının ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 10,6 faiz, real ifadədə 6,2 faiz artaraq 2434,3 milyon dollar təşkil etmişdir.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən ölkənin xarici ticarət dövriyyəsinin 30,8 faizi İtaliya, 16,0 faizi Türkiyə, 8,0 faizi Rusiya, 5,8 faizi Çin, hər biri 3,2 faiz olmaqla Almaniya və İsrail, 3,1 faizi Yunanıstan, 2,3 faizi Hindistan, 2,0 faizi İspaniya, hər biri 1,7 faiz olmaqla Türkmənistan və Gürcüstan, 1,6 faizi Birləşmiş Krallıq, 1,5 faizi Çexiya, 1,3 faizi Rumıniya, 1,2 faizi Fransa, 1,1 faizi Xorvatiya, hər biri 1,0 faiz olmaqla ABŞ və İrlandiya, 13,5 faizi isə digər ölkələr ilə aparılmış ticarət əməliyyatlarının payına düşmüşdür.




İxracın 44,3 faizini İtaliyaya, 17,2 faizini Türkiyəyə, 4,6 faizini İsrailə, 4,5 faizini Yunanıstana, 3,3 faizini Rusiyaya, 2,8 faizini Hindistana, 2,7 faizini İspaniyaya, 2,2 faizini Gürcüstana, 2,1 faizini Almaniyaya, 2,0 faizini Çexiyaya, 1,8 faizini Rumıniyaya, 1,6 faizini Xorvatiyaya, 1,5 faizini Birləşmiş Krallığa, 1,4 faizini İrlandiyaya, 1,2 faizini Bolqarıstana, 0,9 faizini Vyetnama, hər biri 0,6 faiz olmaqla Avstriya, İndoneziya və Portuqaliyaya, 4,1 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (32,3 faiz), Türkiyəyə (26,0 faiz), Gürcüstana (9,9 faiz), İsveçrəyə (4,6 faiz), Qazaxıstana (3,2 faiz), Türkmənistana (2,6 faiz), Ukraynaya (2,1 faiz), Birləşmiş Ərəb Əmirliklərinə (1,9 faiz), Özbəkistana (1,4 faiz), Qırğızıstana (1,3 faiz), Rumıniyaya (1,2 faiz), İtaliyaya (1,2 faiz), Çinə (1,0 faiz), Latviyaya (1,0 faiz), Almaniyaya (1,0 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 18,0 faizi Rusiya, 17,5 faizi Çin, 13,5 faizi Türkiyə, 5,6 faizi Almaniya, 4,9 faizi Türkmənistan, 3,1 faizi ABŞ, 2,8 faizi Fransa, 2,7 faizi İran, hər biri 2,5 faiz olmaqla Koreya və İtaliya, 2,4 faizi Yaponiya, 2,0 faizi Birləşmiş Krallıq, 1,7 faizi Belarus, 1,5 faizi Qazaxıstan, hər biri 1,4 faiz olmaqla Braziliya və Ukrayna, 1,3 faizi Hindistan, 0,9 faizi Polşa, hər biri 0,8 faiz olmaqla Vyetnam və Gürcüstan, 12,7 faizi isə digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

2023-cü ilin yanvar-sentyabr aylarında əvvəlki ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə meyvə ixracı 25,4 faiz, təzə tərəvəz – 7,8 faiz, meyvə və tərəvəz şirələri – 34,1 faiz, meyvə və tərəvəz konservləri – 27,5 faiz, təbii üzüm şərabları və üzüm suslosu – 31,9 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar – 31,4 faiz, polipropilen – 86,4 faiz, polietilen – 37,9 faiz, emal olunmamış alüminium – 18,4 faiz, sement klinkerləri – 12,7 faiz, pambıq ipliyi – 20,0 faiz artmış, kartof ixracı isə 9,1 faiz, şəkər – 16,7 faiz, bitki yağları – 42,7 faiz, çay – 67,6 faiz, tütün – 65,3 faiz, pambıq lifi – 21,7 faiz, mineral gübrələr – 27,9 faiz, qara metallardan çubuqlar – 6,2 faiz, qara metallardan borular – 9,2 faiz, bentonit gili – 1,1 faiz, qara metallardan yarımfabrikatlar – 57,8 faiz azalmışdır.

2022-ci ilin yanvar-sentyabr ayları ilə müqayisədə 2023-cü ilin yanvar-sentyabr aylarında buğda idxalı 6,5 faiz, unlu qənnadı məmulatları – 8,9 faiz, şokolad və şokolad məhsulları – 9,7 faiz, mal əti – 2,2 dəfə, siqaretlər – 12,7 faiz, minik avtomobilləri – 32,1 faiz, dərman vasitələri – 5,5 faiz, polad prokatı – 57,7 faiz, qara metallardan borular – 91,9 faiz, hesablama maşınları, blok və qurğuları – 25,3 faiz, rezin şinlər – 21,6 faiz, yük avtomobilləri – 41,2 faiz, sintetik yuyucu vasitələr – 9,1 faiz, mebellər – 11,0 faiz, polietilen – 47,4 faiz, mineral gübrələr – 50,7 faiz, paltaryuyan maşınlar – 52,0 faiz, qara metallardan künclüklər – 18,8 faiz, polipropilen – 41,0 faiz, məişət soyuducuları – 59,9 faiz artmış, xam şəkər idxalı isə 7,4 faiz, bitki yağları – 4,6 faiz, təzə meyvə – 9,0 faiz, kərə yağı, digər süd yağları və pastaları – 14,1 faiz, çay – 10,3 faiz, quş əti və onun əlavə məhsulları – 5,4 faiz, kartof – 15,2 faiz, təzə tərəvəz – 0,3 faiz, məişət kondisionerləri – 5,3 faiz, qara metallardan çubuqlar – 5,5 faiz, avtobuslar – 73,6 faiz, sement – 31,2 faiz azalmışdır.

***Əlaqə telefonu: 377 10 70 (22-60)***